*Layihənin istiqaməti: Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

# Dağlıq Qarabağda məskunlaşmanın qarşısı alınmalıdır

## Elxan Şahinoğlu: "Ermənilər süni şəkildə Dağlıq Qarabağ ərazisinə qanunsuz yollarla köçürülür. Bu məsələdə beynəxalq qurumlara müraciətimiz çox vaxt cavabsız qalır"

***Livanın paytaxtı Beyrut şəhərində baş vermiş partlayışdan sonra orada yaşayan ermənilərin Dağlıq Qarabağa köçürülməsinə başlanılıb. Tarixçilər qeyd edir ki, bu ermənilərin köçürmə ilə əlaqədar ilk mənfur əməli deyil. Zaman-zaman Ermənistan bu faktordan istifadə edib.***

Suriya ərazisində vətəndaş müharibəsi alovlanan kimi də erməni ailələrin işğal olunmuş ərazilərimizə köçürüldüyünün şahidi olduq. Qeyd edək ki, partlayış nəticəsində Beyrutda zərərçəkmiş tikililər arasında erməni məhəllələri, o cümlədən Müqəddəs Gevork kilsəsi, Livandakı Ermənistan səfirliyinin binası da var. Ölən ermənilərdən biri Livan "Əl-Kataib" partiyasının baş katibi Nizar Najaryandır. Ümumilikdə, hadisə zamanı 3 erməninin öldüyü, yüzə yaxın yaralının olduğu bildirilir. Ekspertlər hesab edir ki, İrəvan Livan ermənilərini Ermənistandan daha çox işğal altındakı Azərbaycan ərazilərinə köçürməyə çalışacaq. Çünki Ermənistanın indiki sosial-iqtisadi vəziyyəti xaricdən yeni şəxslərin cəlbinə imkan vermir.Bəs Azərbaycanın torpaqlarında ermənilərin yerləşdirilməsi fonunda Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması yönündə hansı işlər görülməlidir?

Politoloq Elxan Şahinoğlu "Unikal"a açıqlamasında bildirib ki, Beyrutda baş vermiş partlayışda bir çox insanın evsiz qalmasından və Livandakı iqtisadi sosial vəziyyətin pis olmasından Ermənistan hökuməti sui-istifadə edir: "Ermənistanda yaşayan ailələr heç bir zaman Qarabağa köçməzlər. Çünki onlar bilirlər ki, bu risqlidir, bölgədə hər an müharibə başlaya bilər. Ancaq Suriyada, Livanda yaşayan ermənilər bu ərazilərdə yerləşdirə bilirlər. Çünki Suriyada müharibə başlayanda orada yaşayan orta və aşağı təbəqələrdəki ermənilər son çıxış yolu kimi Ermənistana köçməyə razılıq verirlər. Ermənistan hakimiyyəti isə gəlmə erməniləri öz ərazisində yerləşdirmək əvəzinə qanunsuz olaraq Azərbaycanın işğal olunmuş torpaqlarında xüsusən də Dağlıq Qarabağ ərazisində yerləşdirir. Belə bir vəziyyətdə Ermənistan hökuməti hiyləgərcəsinə plan quraraq Livandakı erməniləri Dağlıq Qarabağa köçürür. Evləri dağılmış, heç bir çıxış yolu olmayan Livan erməniləri son ümid kimi Ermənistan dövlətinin qurduğu hiyləgər planına daxil olmağa məcbur olurlar. Ermənistana köçürülən ermənilər qanunsuz olaraq Dağlıq Qarabağ ərazisində yerləşdirilir".

Elxan Şahinoğlu deyir ki, Livan hökümətinə bir xəbərdarlıq göndərməliyik ki, bu cür halların qarşısını alsın və Livan ermənilərinə xatırlatsın ki, Dağlıq Qarabağ və işğal altındakı ərazilərə köç, birincisi qanunsuz, ikincisi isə onların həyatı üçün təhlükə ola bilər: "Çünki onlar bilməlidirlər ki, Dağlıq Qarabağda müharibə hər an başlaya bilər. Azərbaycan Xarici İşlər Nazirliyi bu məsələdə ATƏT-in Minsk qrupuna müraciət edib. Ancaq Minsk qrupunun və həmsədrlərin fəaliyyətindən narahatıq ki, danışıqlar nəticə vermir. Hazırda ATƏT bu köçün qarşısını almaq iqtidarında deyil, ancaq yenə də biz müraciət etməliyik. Amma illərdir ermənilər süni şəkildə Dağlıq Qarabağ ərazisinə qanunsuz yollarla köçürülür. Bu məsələdə beynəxalq qrumlara müraciətimiz çox vaxt cavabsız qalıb. Bu məsələnin həllində əsas söz sahibi biz olmalıyıq".

Elxan Şahinoğlu onu da bildirir ki, belə bir vəziyyətdə Azərbaycan Dağlıq Qarabağ həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, livan ermənilərinin köçürüldüyü torpaqların Azərbaycan xalqının öz dədə-baba yurdu olduğunu tarixi faktlarla sübut etməlidir. Azərbaycanın xaricdəki diaspor təşkilatları bu problemi beynəlxalq təşkilatlar qarşısında qaldırmalıdır.

Qeyd edək ki, Livandan ermənilərin köçürülməsi ilə bağlı, ATƏT Parlament Assambleyası (PA) rəhbərliyinin sentyabrın 2-də keçirilən iclasında qurumun Büro üzvləri Ermənistanın Azərbaycanın işğal edilmiş ərazilərinə Livan ermənilərinin qanunsuz köçürülməsindən və işğalçı ölkənin Azərbaycana qarşı törətdiyi təxribatların son aylarda daha da intensivləşməsindən narahatlıqlarını bildiriblər. ATƏT-in Faktaraşdırıcı Missiyası hesabatında Laçın rayonu ərazisində 8-11 min erməninin yerləşdirildiyini müəyyən edib. Azərbaycanın məlumatlarına görə isə bu rəqəm 13 mindən artıqdır.Qarabağ müharibəsindən sonra imzalanan atəşkəsdən dərhal sonra Ermənistan hakimiyyəti tərəfindən Laçın şəhərinin və rayonun bir neçə ətraf kəndində ermənilərin məskunlaşdırılmasına dair məxfi əmr verilib. Məlumatlara görə, 1995-ci ildə Laçın rayonunun 12 kəndində ermənilər qanunsuz şəkildə məskunlaşmışdı. 2004-cü ildə isə Laçın və kəndlərində, o cümlədən digər ətraf rayonlarda yaşayan ermənilərin sayı 13500-ə çatmışdı.

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva isə bildirib ki, təcavüzkar Ermənistanın hərbi işğal altında saxladığı Dağlıq Qarabağ və ətraf ərazilərimizdəki qeyri-qanuni fəaliyyəti, o cümlədən qanunsuz məskunlaşdırma siyasəti Nazirlik tərəfindən beynəlxalq təşkilatlar çərçivəsində qaldırılır: " Azərbaycanın beynəlxalq tanınmış ərazilərində Ermənistanın qanunsuz məskunlaşdırma siyasəti ilə bağlı, o cümlədən Ermənistanın Livandakı faciədən öz qanunsuz məqsədləri üçün istifadə etmək niyyətləri ilə bağlı ciddi narazılığımız ATƏT-in Minsk Qrupunun həmsədrləri qarşısında qaldırılıb.Azərbaycanın haqlı mövqeyi ərəb ölkələrində, dünyada daha sistemli, elmi faktlarla, dünya KİV-lərində, sosial şəbəkələrdə, müxtəlif dillərdə, xarici ölkələrin elm adamları, mütəxəssisləri, siyasətşünasları, jurnalistləri və s. birlikdə təbliğ olunmalıdır. Uzun əsrlər boyu ermənilər dünyanın bir çox ölkələrinə, o cümlədən ərəb ölkələrinə səpələnmiş, bəzi dövlətlərin maliyyə və siyasi dəstəyi nəticəsində diaspor, siyasi, ideoloji, dini, silahlı dəstələr, terror təşkilatları yaratmışlar. Məsələn, tayfa və dini prinsiplər əsasında idarə edilən Livanda adətən iki, Suriyada isə bir nazir erməni millətindən təyin edilir. Misirdə isə 10 mindən çox erməni ailəsi yaşayır, onların çoxlu sayda qəzetləri, ictimai rəyə təsir edə bilən professorları, incəsənət xadimləri var ki, həmin ölkələrdə geniş əlaqələrə malik olan ermənilər Misirdə və digər ərəb ölkələrində özlərinin siyasi, ideoloji mövqelərini təbliğ edirlər. Təbii ki, bu gün Azərbaycan dünyada, Yaxın və Orta Şərqdə erməni yalanlarını ifşa etmək üçün daha çox iş görməlidir. Təbii ki, hər bir Azərbaycanlı vəzifəsindən asılı olmayaraq müvafiq dövlət qurumları ilə yanaşı, dünyada Azərbaycanın təbliğində, xüsusilə də informasiya siyasətində fəal olmalıdır.Qeyd edək ki, tarixçi-alim 3 aydır ki, Misir, İordaniya, BƏƏ, Liviya, Özbəkistan, Qazaxıstan, Türkiyə, İran və digər ölkələrdə Azərbaycan həqiqətləri, Dağlıq Qarabağ münaqişəsi, azərbaycanlıların soyqırımı və s. mövzularda işğal olunmuş ərazilərimiz, 20 Yanvar faciəsi, Xocalı soyqırımı, ermənilərin qeyri-qanuni məskunlaşması və s. haqda məqalələr yazır".



Heç şübhəsiz ki, Ermənistan demoqrafik vəziyyəti öz xeyirinə dəyişmək üçün Qarabağa Livandan erməni ailələrini köçürür. Bununla Ermənistan gələcəkdə onları yerli əhali kimi təqdim etmək niyyətindədir. 1994-cü ildən etibarən dünyanın müxtəlif ölkələrində yaşayan ermənilərin qanunsuz olaraq Azərbaycanın Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərinə köçürülməsi halları mövcuddur. Beynəlxalq təşkilatların mövqeyinə nəzər yetirdikdə görürük ki, Ermənistan işğalçı tərəf olaraq Cenevrə konvensiyaları ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozur, qaçqınların məqsədyönlü şəkildə məskunlaşma siyasətini aparaaq demoqrafik tərkibin dəyişdirilməsi kimi qanunsuz əməllərini davam etdirir. Bütün bunlar beynəlxalq hüququn prinsiplərinə ziddir. Onu da xatırladaq ki, Livan ASALA erməni terror təşkilatının yarandığı, inkişaf etdiyi ölkədir. Orada hazırda da kifayət qədər erməni əsilli terrorçu var. Bu adla kifayət qədər terrorçunun da işğal altında olan ərazilərimizə yerləşdirilməsi mümkündür.Politoloqlar hesab edir ki, ATƏT və onun Minsk qrupunun faktaraşdırıcı missiyası bu prosesi nəzarətə götürməli və beynəlxlaq hüquq normalarına uyğun ölçü götürməlidir. Çox təəssüf ki, illərdir ki, beynəlxalq təşkilatlar ermənilərin süni məskunlaşma prosesinə göz yumurlar.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı